8 may / 2021

Ədəbiyyat QƏZETİ

# Şair ölümünə inanılmadı, son nöqtə qoyuldu "Gəl, ey səhər"lə

Şair ölümünə inanmasa da, "Ömrümün sonuna doğrudur atdığım hər addım" anlatması vardı. Xalq şairi Fikrət Qoca "Mən ayaq açıb anamın yanından məzarıma qədər gedən bir yolçuyam" deyirdi... Bütün qalan əməllərini yolüstü gördüyü işlər bilirdi...

Bir az ömür istəyirdi, bir az, bir az da! "Bir əsr də azdı, beş əsr, on əsr də" qənaətindəydi. Qədərini bilmədiyi ömür arzulayırdı.

Evi - avtobuslar, vaqonlar, təyyarələr idi, dayanacağı - kəndlər, şəhərlər, səyyarələr... "Milyon kilometrlərlə ömür yaşamışam" - yazırdı. "Kim bilir, harda dayanacağam?" nigarançılığı çəkirdi. Yaşadığı həyatı öz həqiqəti bilirdi. "Şair ölmür, qara qələmi kimi yazılır, qurtarır" təskinliyi verirdi.




Necə yazmışdısa elə də oldu. Ölmədi, qara qələm kimi yazıldı, qurtardı.

Fəxri xiyabana, son mənzilinə yola salanları şair ölümünə inanmadı ki! Məzarı başında qələm dostları onun sağlığından söhbət açdılar.

Yazıçılar Birliyinin katibi Rəşad Məcid Xalq şairi Fikrət Qocanın böyük şair, böyük vətəndaş, gözəl dost, gözəl yol yoldaşı olmasından söz açdı.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar dedi: "Fikrət mənim 60 ildən də artıq zaman məsafəsində yaxın, etibarlı dostum, qardaşım idi. Bütün sınaqlardan bir yerdə keçmişdik. Heç vaxt öz sədaqətindən, etibarından kənara dura bilmirdi. Fikrət böyük şair, böyük dost, böyük ziyalı idi. İnsanlara yalnız yaxşılıq etmək istəyirdi...".

Xalq şairi, millət vəkili Sabir Rüstəmxanlı dedi: "Şeirimizin ağsaqqallarından birini, müasir ədəbiyyatımızın çox görkəmli nümayəndəsini, 85 illik şərəfli bir ömür yaşamış dostumuzu, qardaşımızı, böyük şairimiz Fikrət Qocanı haqq dünyasına yola salırıq.

Fikrət ötən əsrin altmışıncı illərində elə Qocaydı. Amma 85 yaşında dünyasını dəyişəndə yenə də cavan idi. Fikrət bütün ömrü boyu bir gənclik eşqilə yazdı-yaratdı. Şeirləri dillər əzbəri olması bir yana, həm də yüzlərlə mahnıya çevrildi. Azərbaycan xalqının mənəvi dünyasını Fikrət öz sözü ilə yanaşı, həm də mahnılara çevrilmiş misraları ilə bəzədi. Əli Kərimin sözlərilə desək, şeirlə musiqinin harmonik möcüzəsini yaratdı.

Fikrət həm də gözəl nasir idi. Gözəl nəsr əsərlərinin müəllifidi. Hələ cavan yaşlarında yazırdı:

*Birimizin əli qabardı,*
*birimizin beyni!*
*Hamımız eyniyik,*
*qardaş, eyni...*

O, cavanlıqdan əli qabar olmaqla beyni qabar olmağın fərqini yaxşı bilirdi. Elə özü də beyni qabar olanlardan biriydi... Biz meydanlara çıxanda, o, meydanı yazı masasına çəkirdi. Son 44 günlük müharibə zamanı elə həftə olmadı ki, ya "Ədəbiyyat qəzeti"ndə, ya da başqa mətbu orqanlarında Fikrətin şeirlərini görməyim. Bu yaşında o, cəbhədəydi, xalqın, günümüzün sözünü deyirdi. Fikrət son dərəcə gözəl insan idi. Allah onu yalnız xoş sözlər demək, xoş düşüncələri yaşatmaq üçün yaratmışdı. Olduqca xeyirxah idi. Haqqında nə deyirdilərsə, təbəssümlə keçib gedirdi. Çünki özünə, sözünə güvənirdi.



Bu gün artıq Fikrət Qoca bu Fəxri xiyabanda uyuyan, bizim son əsrlərdə xalqımızın yetişdirdiyi ən böyük insanlarla, dahilərlə bir cərgədə yatır. Və onlarla bir yerdə Fikrət də ölməzdir. Bu gün bütün hamımızın, Yazıçılar Birliyinin, bu böyük ailənin kədərli günüdür. Fikrət Qoca hər birimizin itkisidir. Buna görə də hər kəsə səbr diləyirəm. Allah Fikrətə rəhmət eləsin!..".

Sükut içindəydi Fəxri xiyaban...

"Gəl, ey səhər"lə açılırdı Fikrət Qocanın yeni günü!..

***Sərvaz Hüseynoğlu***